DOI: https://doi.org/10.36719/2789-6919/48/86-89

**İradə İsgəndərova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
magistrant
https://orcid.org/0009-0009-6764-5982
aradi3360@gmail.com

# Pedaqoji ünsiyyət – müəllim-şagird münasibətlərində səmərəli qarşılıqlı əlaqənin əsası kimi

## Xülasə

İnsanlar arasında qarşılıqlı münasibətlərin ifadəsi ünsiyyət adlanır. İnsanlararası digər münasibətlərin təməli məhz ünsiyyətlə başlayır. İnsanın həm şəxsi, həm peşəkar həyatında mühüm rol oynayan ünsiyyətin, daha dəqiq, ailədən başlayan ünsiyyət bacarıqlarının əsası məktəbdə qoyulur. Dinləmə, dinlədiyinə münasibət bildirmək, empatiya qurmaq, mimikadan, jestlərdən yerində istifadə etmək, həmçinin ünsiyyətdə səbr, təmkin kimi bacarıqlara uşaqlar ibtidai siniflərdən müəllim-şagird münasibətlərində yiyələnirlər.

Müəllim-şagird ünsiyyəti peşə ünsiyyəti olaraq pedaqoji ünsiyyət adlanır. Pedaqoji ünsiyyətdə müəllim şagirdlə sadəcə dialoqa girmir, onun fərdi-idraki, emosional, motivasiyaedici qabiliyyətlərini inkişaf etdirir. Pedaqoji ünsiyyət səmərəli, effektiv qurularsa, şagirdin qabiliyyətləri üzə çıxar, düzgün, səlis, aydın nitq vərdişlərinə yiyələnmiş olar.

Müəllim-şagird pedaqoji ünsiyyətində müəllim subyekt, idarəolunan kimi çıxış etsə də, fərdi ünsiyyət üslubu, mövqeyi, yanaşma tərzinə görə bəzən şagirdlə bərabər mərtəbədə dayanır; avtoritar rəhbərlik üslubuna malik müəllimlər şagirdlə obyekt kimi davranırdılarsa, müasir təlimdə müəllimin fəaliyyəti subyekt-subyekt müstəvisində qərarlaşırlar. Müəllim-şagird münasibətlərində uğurlu pedaqoji ünsiyyət isə təlim-tərbiyə prosesinin açarı sayılır.

***Açar sözlər:*** *ünsiyyət, pedaqoji ünsiyyət, müəllim, şagird, nitq qabiliyyəti, motivasiya*

**İrada İsgandarova**
Azerbaijan State Pedagogical University
Master student
https://orcid.org/0009-0009-6764-5982
aradi3360@gmail.com

# Pedagogical Communication – as the Basis for Effective Interaction in Teacher-Student Relationships

## Abstract

The expression of mutual relations between people is called communication. The foundation of other interpersonal relations begins with communication. The foundation of communication, more precisely, communication skills that start in the family, which play an important role in both a person's personal and professional life, is laid at school. Children acquire skills such as listening, expressing their attitude to what they are listening to, building empathy, using facial expressions and gestures appropriately, as well as patience and restraint in communication from elementary school in teacher-student relationships.

Teacher-student communication is called pedagogical communication as a professional communication. In pedagogical communication, the teacher does not simply enter into a dialogue with the student, but develops his individual-cognitive, emotional and motivational abilities. If pedagogical communication is established efficiently and effectively, the student's abilities are revealed and correct, fluent and clear speech habits are acquired.

Although in teacher-student pedagogical communication, the teacher acts as a subject and a controlled one, he sometimes stands on an equal footing with the student due to his individual communication style, position and approach; While teachers with an authoritarian leadership style treated students as objects, in modern teaching the teacher's activity is based on a subject-subject level. Successful pedagogical communication in teacher-student relationships is considered the key to the educational process.

***Keywords:*** *communication, pedagogical communication, teacher, student, speaking ability, motivation*

## Giriş

Pedaqoji ünsiyyət təhsil və tərbiyə fəaliyyəti prosesində müəllimlə uşaqlar arasında qurulan əlaqədir. O, iki istiqamətdə ahəngdar şəkildə inkişaf etməlidir; bir tərəfdən müəllim şagirdlərlə münasibətlər qurmağa, hər cəhdlə onlara yaxınlaşmağa, ürəklərinə yol tapmağa çalışır, digər tərəfdən uşaqların bir-birilə ünsiyyətini idarə edir. Pedaqoji ünsiyyət həm təlim-tərbiyə, həm də şəxsi yönümlü sahələri əhatə edir. "Pedaqoji ünsiyyətin yerinə yetirdiyi vəzifələrə görə onun aşağıdakı növlərini ayırmaq mümkündür: informasiya mübadiləsi, başqa adamın davranışını tənzim etmək, şəxsiyyətlərarası anlama. Tərəfmüqabilliyin xarakterinə və müəllimin ünsiyyətdəki mövqeyinə görə də pedaqoji ünsiyyətin növlərini müəyyənləşdirmək mümkündür. Adətən, şagirdlərlə və valideynlərlə ünsiyyət zamanı müəllim qiymətləndirən rolunda, direktorla, dərs hissə müdiri ilə, metodistlə, inspektorla pedaqoji ünsiyyət zamanı isə qiymətləndirilən rolunda çıxış edir və buna müvafiq olaraq ünsiyyət vasitəsi də dəyişilir. Pedaqoji ünsiyyəti öz məzmununa və müəllimin şagirdə müraciət tərzinə görə də növlərə ayırmaq mümkündür. Bunlara təşkiledici, qiymətləndirici, intizam yaradan pedaqoji ünsiyyət növlərini aid etmək olar" (https://aztehsil.com/mel).

**Tədqiqat**

Bildiyimiz kimi, hər bir müəllimin şagirdlə münasibəti nitqdən başlayır. Nitq müəllimə şagirdləri öz düşüncə tərzi ilə tanış etməyə, onlarla təmasa, mehribançılığa, təsiretməyə imkan verən şifahi üsuldur. Bu mənada müəllimlə şagirdlər arasında səmərəli qarşılıqlı əlaqə birtərəfli münasibət kimi xarakterizə edilməməlidir. Müəllim-şagird pedaqoji ünsiyyəti müəyyən qaydalara əməl olunduğu dialoq, qarşılıqlı əməkdaşlıqdır:

– bir-birinin fikirlərini dinləmək;
– birlikdə qərarlar qəbul etmək;
– öz hərəkətlərinə və bütün qrupun işinə görə məsuliyyət daşımaq.

Müəllim-şagird münasibətlərində pedaqoji ünsiyyət, ilk növbədə, müəllimin şəxsi keyfiyyətlərindən asılıdır (Bayramova, 2015; Həmzəyev, Əmiraslanova, 2007; Alıkişiyeva, 2023). Müəllimin şəxsiyyəti, hər uşağa fərdi yanaşma tərzi, şagirdlər arasında ayrı-seçkilik etməmək, nitqində etik normaları pozmamaq və həddən ziyadə yumşaqlıq göstərməmək işgüzar, eyni zamanda, etibarlı qarşılıqlı əlaqə yaratmaq üçün tələb olunan keyfiyyətlərdir. Pedaqoji ədəbiyyatda müəllimin peşə etikasından irəli gələn vəzifələr də irəli sürülür ki, bunlara şəxsi, təşkilati, işgüzar və vizual bacarıqlar aid edilir:

-şəxsi bacarıqlar: səmimiyyət, xoşniyyətlilik, emosional sabitlik və tarazlıq, məsuliyyət, özünü idarə etmək bacarığı;

-təşkilati bacarıqlar: ədalətlilik, ardıcıllıq, dürüstlük, başqalarının fikrinə hörmət;

-işgüzar bacarıqlar: demokratik yanaşma, öz fikir və ideyaları ilə başqalarını cəlb etmək bacarığı;

-vizual bacarıqlar: ahəngdar və səliqəli görünüş, xoş səs, təmkinli, lakin ifadəli jest və mimika, ümumi cəlbedicilik.

Bu bacarıqlara müəllimin bir mütəxəssis kimi peşəkarlığını da əlavə etmək lazımdır; bəzi uşaqlarda gənc müəllimə qarşı etibarsızlıq, onun biliyinə inamsızlıq olsa da, bəzi uşaqlar daha çox gənc müəllimlə ünsiyyəti xoşlayır, onunla özü arasında "böyük" fərq görmür, sanki ona daha çox etibar edir, onu dinləyir və tapşırıqlarını can-başla yerinə yetirirlər. Burada müəllimin pedaqoji ustalığı artıq öz fənnini sevməklə kifayət etmir, həm də onun haqqında həyəcanla danışmağı bacarmalı, dərs

zamanı sinifdəki hər bir uşağın diqqətini özünə cəlb etməyi bacarmalı, tədris metodları və üsullarından istifadəyə diqqət yetirməlidir.

Gənc müəllimlər tez-tez uşaqların onlara qulaq asmamasından, dərsdə nizam-intizama riayət etmədiklərindən, tapşırıqları unutduqlarından, bəzən kobudluqlarından şikayətlənirlər. Təbii ki, bütün bunların səbəbi uşaqdan daha çox pedaqoji prosesin natamamlığında, pedaqoji davranışın yanlış modelində olur. Müəllim şagirdlərlə ümumi ortaq fikrə gəlmək, onlara yaxınlaşmaq əvəzinə öz "status"undan istifadə edir, səhv davranış modeli ilə pedaqoji ünsiyyətdə problemlərə səbəb olur. Rus pedaqoqu N.Pronyayeva bu kontekstdə müəllimləri tiplərə ayırır. Birinci tip müəllimləri o "boss" adlandırır. Belə müəllimlər özlərini uşaqlardan üstün tutur, onlardan mükəmməl itaət tələb edir, daim öz gücünü və qüdrətini, öz baxışının düzgünlüyünü vurğulayır. Müəllim və uşaqlar arasındakı bu qarşılıqlı əlaqə modeli mentorun uşaqların qorxularına və mümkün səhvlərinə təzyiq göstərmək istəyi ilə xarakterizə olunur. Nəticədə, müəllimlə uşaqlar arasında qeyri-səmimi münasibət yaranır, sinifdə daim iğtişaşlar, münaqişələr, narazılıqlar olur.

İkinci tip müəllimləri pedaqoq "kompüter" adlandırır. Belə müəllimlər qapalı, soyuq olur, əsas məqsədinin uşaqlara bilik vermək olduğuna inanır. Uşaqlarla yaxın münasibət qurmağa, onların problemlərini araşdırmağa çalışmır və səmimi münasibətdən qaçır. "Kompüter" müəllimi sinifdə, yaxud uşaqlar arasında baş verən münaqişəni totalitar həll edir, onların uğurlarını adi hal kimi qəbul edir, fikirləri ilə maraqlanmır. Nəticədə, uşaqların özünəinamı aşağı düşür, müsbət emosiyaların olmaması səbəbindən öyrənməyə maraq yox olur, nizam-intizam və akademik göstəricilər aşağı düşür (Əliyev, 2000; Paşayev, Rüstəmov, 2002).

Uşaqlar arasında mübahisəli vəziyyətləri həll edərkən ən çox psixi gərginlikdən qorxan müəllimlər "uğursuz" adlanır. Belə müəllimlər həmişə narahat olur, başqasının işini öz üzərinə götürür və yenə də daim günahkarlıq hissi keçirir. Uşaqlar müəllimin bu cür davranışına müxtəlif yollarla, lakin həmişə fərqli reaksiya verirlər. Bəziləri onunla manipulyasiya etməyə başlayır, bəziləri isə əksinə, müəllimi narahat etməmək üçün problemlərini gizlədirlər.

"Dost" modeli müəllim istəyir ki, uşaqlar onunla yaxşı davransınlar. Uşaqların hər bir hərəkətinə sakit, soyuqqanlı yanaşır, onların hər hansı bir yaramazlığını bağışlayır, tələb edən, nəzarət edən və cəzalandıran digər "böyüklər"dən fərqli olaraq, uşaqlarla dostluğa can atır. Nəticədə, şagirdlərdə müəllimə səmimi, qayğıkeş münasibət formalaşır, öz fəaliyyətlərini planlaşdırmağı, səhvlərə görə məsuliyyət daşımağı vacib bilir və edirlər.

Bu gün pedaqoji ünsiyyətin demokratik üslubu optimal hesab olunur və yeni başlayan müəllim də məhz buna can atır. Bu yanaşma uşaqlarda müəllimin şəxsiyyətinə və bütövlükdə məktəbə pozitiv münasibət formalaşdırır, onların müstəqilliyini inkişaf etdirir, təhsil, idrak və yaradıcılıq fəaliyyətini aktivləşdirir (Kan-kalik, 1987; Meshchanenko, 2004; Proyaeva, 2020)

Demokratik müəllim mehribandır, səbirlidir, dərslərində işgüzardır, şagirdlərlə mehriban ünsiyyət qurur və işgüzar ab-hava yaradır. Uşaqlar onlardan nə gözlənildiyini dəqiq bilirlər, lakin səhv etməkdən, təşəbbüs göstərməkdən də çəkinmirlər, çünki müəllimin nəzarəti diqqətdən kənarda qalır, cəzalar əvəzinə izahedici söhbətlər, tərbiyəvi yanaşmalar aparılır. Demokratik müəllim uşaqlarla münasibətləri subyektdən mövzuya görə qurur, bəzən dost kimi, bəzən mentor, yaşlı yoldaş, nümunə kimi çıxış edir. Nəticədə, pedaqoji ünsiyyət müəllim-şagird münasibətlərində səmərəli qarşılıqlı əlaqənin əsası kimi özünü göstərir.

Pedaqoji ünsiyyətdə yol verilən səhvlər çox vaxt uşaqlarla açıq qarşıdurmaya səbəb olur. Şagirdi düzgün anlamamaq, bəzən "uşaqdır" deyib fikrini ciddi qəbul etməmək psixoloji problemlərə səbəb olur, sinifdəki ümumi atmosferə və təhsil prosesinin səmərəliliyinə təsir göstərir. Əsas silahı söz olsa da, müəllim pedaqoji ünsiyyətdə qeyri-verbal vasitələrdən də istifadə edir. Bu vasitələrə: ekspressiv-mənalı hərəkətlər (duruş, mimika, jestlər, baxış, bədən dili); ekstralinqvistika (səs tonunun ucalığı, səsin tembri, gülüş, vurğu, intonasiya); takesik hərəkətlər (əl-ələ tutma, qucaqlaşma, sığallama, toxunma və s.); proksemik vasitələr (müəllimlə şagird arasında ünsiyyət zamanı distansiya – məsafə).

## Nəticə

Bu gün uşaqlar müəllimlə müxtəlif sosial şəbəkələrdə "dost" olur, onun fikirlərini bəyənir, münasibət bildirir, paylaşırlar. Onlar müəllimin "qapısını döyür", onu ev yiyəsi kimi qəbul etmələrini xahiş edirlər və təbii ki, müəlim "qonağ"ına biganə qalmır. Bu ünsiyyət rəqəmsal ünsiyyətdir və müəllim bu ünsiyyətdə xüsusilə ayrı-seçkilik etməməlidir, uşaq fikirləşməməlidir ki, müəllim onu kimdənsə ayırır. Rəqəmsal ünsiyyətdə yenə də yük müəllimin üzərinə düşür; ünsiyyətin vaxtı, sərhədi müəyyənləşdirilməli, uşaqlar müəllimin şəxsi mesajlara cavab verib-vermədiyini, hansı vaxtda yazmağın qadağan olduğunu, çata səsli və video mesajlar, stiker və emojilərin göndərilməsinin icazəli olub-olmadığını bilməlidirlər.

Pedaqoji ünsiyyətdə müəllim-şagird münasibətlərinin səmərəliliyini şərtləndirən başlıca cəhət onun motividir. "Müəllim şəxsiyyətinin sosial məzmunu öz ifadəsini motivdə tapır. Demokratik düşüncə tərzinə, vətənpərvərlik, şəxsi ləyaqət və məsuliyyət hissinə malik olan hər bir müəllim şagirdlərlə münasibətində uğur qazana bilər" (Əliyeva, 2018, s. 121).

## Ədəbiyyat

1. Alıkişiyeva, M. (2023). Yazı bacarıqları – komminikativ vasitə kimi. *Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri,* (90)2.
2. Bayramova, L. (2015). *Pedaqoji ünsiyyət haqqında anlayış.* https://metodik tovsiyye. blogspot.com/2015/10/pedaqoji-unsiyyt-haqqnda-anlays.html
3. Əliyev, R. (2000). *Şəxsiyyət və onun formalaşmasının etnopsixoloji əsasları.* "Mütərcim".
4. Əliyeva, L. (2018). Pedaqoji ünsiyyətin psixoloji xüsusisyyətləri. *ADU-nun Elmi xəbərləri,* 1.
5. Əlizadə, H., Rüstəmov, F., Quliyeva, K. (2000). *Müəllim peşəsinin professioqramı. Pedaqoji tədqiqatlar*. "Elm".
6. Həmzəyev, M., Əmiraslanova, S. (2007). *Ünsiyyətin psixologiyası*. ADU.
7. Kan-Kalik, V.A. (1987). *Uchitelyu o pedagogicheskom obshchenii*. Prosveshchenie.
8. Meshchanenko, E.N. (2024). Uchitel' − uchenik: sistema vzaimootnoshenii. Modeli obsheniya pedagoga s obuchayushimisya. *Teoriya i praktika sovremennoi nauki,* (110)8.
9. Paşayev, Ə., Rüstəmov, F. (2002). *Pedaqogika. Yeni kurs*. "Çaşıoğlu".
10. Pronyaeva, N.A. (2020). *Rekomendatsii dlya nachinayushchikh pedagogov: kak vystroit' otnosheniya s uchenikami* https://niidpo.ru/blog/rekomendatsii-dlya-nachinayuschih-pedagogov-kak-vyistroit-otnosheniya-s-uchenika
11. https://maarifci.az/unsiyyet-bacariqlarinizi-inkisaf-etdirmek-ucun-5-yol/
12. https://aztehsil.com/mel/288-mimin-agirdlrl-nsiyyt-slubupedaqoji-nsiyyt-haqqnda.html
13. https://aztehsil.com/mel/166-mllim-mhm-pe-keyfiyytlri-mllimin-balca-silah-szdr.html

Daxil oldu: 15.05.2025
Qəbul edildi: 18.08.2025